# MƏHKƏMƏ-HÜQUQ ŞURASININ
# BÜLLETENİ

İYUN 2026

# MÜNDƏRİCAT


3 Ali Məhkəmədə etimad hüququnun qorunması və inzibati praktikada bərabər yanaşma məsələləri müzakirə olunub

5 İnam Kərimov Türk Dövlətləri Ali Məhkəmələrinin II Konfransında iştirak edib

7 Keniya Ali Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib

8 Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin Konfransı keçirilib

9 Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib

10 Hakimlər Türkiyədə təlim səfərində olublar

11 Hakimlərin Seçki Komitəsinin məlumatı

12 Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının 46-cı plenar iclası keçirilib

13 Hakimliyə namizədlərlə test imtahanı keçirilib

14 Hüquqi aktlar

# Ali Məhkəmədə etimad hüququnun qorunması və inzibati praktikada bərabər yanaşma məsələləri müzakirə olunub



2026-cı il iyunun 12-də Azərbaycan Respublikası Ali Məhkəməsi yanında Elmi-məsləhət şurasının növbəti iclası keçirilib.

Ali Məhkəmənin hakimlərinin, inzibati orqanların nümayəndələrinin, vəkillərin, alim və hüquqşünas ekspertlərin, habelə ad-hoc üzvlərin iştirakı ilə keçirilən iclasda "Məhkəmələr tərəfindən mübahisələrə baxılarkən inzibati praktikada bərabər yanaşma və etimad hüququnun qorunması prinsiplərinin tətbiqi" mövzusunda müzakirələr aparılıb.

Ali Məhkəmənin İnzibati kollegiyasının sədri Xəqani Məmmədov bildirib ki, müzakirələrin keçirilməsində məqsəd etimad hüququnun qorunması ilə bağlı həm məhkəmə təcrübəsində, həm də inzibati orqanların fəaliyyətində vahid yanaşmanın formalaşdırılmasına töhfə verməkdir. Qeyd olunub ki, aparılan müzakirələr və irəli sürülən təkliflər etimad hüququnun məhkəmə təcrübəsində tətbiqinə dair Ali Məhkəmə Plenumunun qərar layihəsinin hazırlanması baxımından mühüm əhəmiyyət kəsb edir.

İclasda 2025-ci il üzrə inzibati məhkəmələr tərəfindən etimad hüququna əsaslanaraq qəbul edilmiş məhkəmə aktları ilə bağlı Ali Məhkəmə tərəfindən aparılan ümumiləşdirmənin ilkin nəticələri barədə iştirakçılara məlumat verilib.

Daha sonra etimadın qorunması prinsipinin mahiyyəti və tətbiqi, inzibati praktikanın anlayışı, formalaşması, dəyişdirilməsi və ona etimad hüququnun tanınmasının şərtləri, habelə inzibati praktika ilə məhkəmə təcrübəsi arasındakı əlaqə məsələləri müzakirə olunub.

Bununla yanaşı, qanuni və qanunsuz əlverişli inzibati aktların ləğvi zamanı etimad hüququnun qorunması, maraqlar balansının müəyyən edilməsi, kompensasiya məsələləri, ləğv müddətləri, eləcə də qanunsuz inzibati praktikanın hüquqi nəticələri və inzibati orqanların bu sahədə məsuliyyəti ilə bağlı çıxışlar dinlənilib, təkliflər səsləndirilib.

Sonda Ali Məhkəməyə təqdim olunmuş mülahizələr və iclas zamanı irəli sürülən təkliflərin vahid hüquqtətbiqetmə təcrübəsinin formalaşdırılması baxımından əhəmiyyəti vurğulanıb.

# İnam Kərimov Türk Dövlətləri Ali Məhkəmələrinin II Konfransında iştirak edib




2026-cı il iyunun 18-19-da Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri İnam Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Ali Məhkəmələrinin II Konfransında iştirak etmək məqsədilə Qazaxıstan Respublikasının Türküstan şəhərində səfərdə olub.

Konfransda çıxış edən İnam Kərimov bildirib ki, Türk Dövlətləri Təşkilatı son illər siyasi, iqtisadi, humanitar və mədəni sahələrdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm nailiyyətlər əldə edib. Qeyd olunub ki, bu prosesdə hüquqi əməkdaşlıq da xüsusi yer tutur və Azərbaycanın türk dünyası ölkələri ilə hüquq sahəsində əlaqələri, yüksək səviyyəli qarşılıqlı səfərlər və müxtəlif istiqamətlər üzrə əməkdaşlıq təşəbbüsləri artan dinamika ilə davam edir.

Çıxışda qeyd edilib ki, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi ilə yanaşı, iqtisadi münasibətlərin inkişafı və investisiyaların təşviqində məhkəmələrin rolu xüsusi əhəmiyyət daşıyır. Bildirilib ki, hüquq sisteminə ictimai etimadın qorunması və daha da möhkəmləndirilməsi məqsədilə məhkəmə sistemi daim inkişaf etməli, fəaliyyətini müasir dövrün çağırışlarına uyğunlaşdırmalıdır. Çıxış zamanı məhkəmə xidmətlərinin elektronlaşdırılması və proseslərin rəqəmsal əsasda təşkili istiqamətində əldə olunmuş nailiyyətlərə də toxunulub. Yeni çağırışlar fonunda süni intellekt texnologiyalarının imkanlarının araşdırılması, onların məhkəmə fəaliyyətində tətbiqi və qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsinin vacibliyi vurğulanıb. Bu kontekstdə qeyd edilib ki, Azərbaycan Respublikasında Prezident İlham Əliyevin Sərəncamı ilə 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası təsdiq olunub. Strategiya dövlət idarəçiliyində rəqəmsal transformasiyanın sürətləndirilməsi ilə yanaşı, məhkəmə sistemində innovativ texnologiyaların tətbiqi üçün də yeni imkanlar yaradıb.

Həmçinin bildirilib ki, türk dövlətlərinin ali məhkəmələri arasında yaradılması nəzərdə tutulan Vahid Məlumat Platforması hakimlərin və hüquq ictimaiyyətinin üzvlərinin digər dövlətlərin məhkəmə təcrübəsi ilə daha yaxından tanış olmasına, qabaqcıl hüquqi yanaşmaların öyrənilməsinə və təcrübə mübadiləsinin genişlənməsinə mühüm töhfə verəcək.

Tədbirin yekununda Türk Dövlətləri Ali Məhkəmələrinin II Konfransının Birgə Bəyanatı qəbul olunub. Bəyanatda məhkəmə sistemlərinin rəqəmsallaşdırılması, investor hüquqlarının qorunmasının gücləndirilməsi, eləcə də türk dövlətlərinin ali məhkəmələri arasında Vahid Məlumat Platformasının yaradılması istiqamətində əməkdaşlığın inkişafı nəzərdə tutulur.

Səfər çərçivəsində İnam Kərimov Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri Aslanbek Merqaliyev və Qırğızıstan Respublikası Ali Məhkəməsinin sədri Mederbek Satıyev ilə görüşlər keçirib. Görüşlər zamanı məhkəmə-hüquq sahəsində ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı nümayəndə heyəti, həmçinin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən qəbul edilib. Kasım-Jomart Tokayev Təşkilatın çoxtərəfli əməkdaşlığın inkişafında xüsusi rol oynadığını vurğulayıb, üzv dövlətlər arasında məhkəmə-hüquq sahələrində əməkdaşlığın davamlı şəkildə gücləndiyini qeyd edib.

# Keniya Ali Məhkəməsinin nümayəndə heyəti ilə görüş keçirilib



2026-cı il iyunun 1-də ölkəmizdə səfərdə olan Keniya Respublikası Ali Məhkəməsinin sədri xanım Marta Koomenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Azərbaycan Respublikasının Ali Məhkəməsində görüş keçirilib.

Qonaqları salamlayan Ali Məhkəmənin sədri İnam Kərimov iki ölkə arasında dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirib, məhkəmə-hüquq sahəsində əməkdaşlığın genişləndirilməsinin qarşılıqlı maraq doğurduğunu qeyd edib.

Qonaqlara ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları, məhkəmə təcrübəsinin vahidliyinin təmin olunması istiqamətində görülən işlər, eyni zamanda məhkəmə sisteminin müasirləşdirilməsi və rəqəmsallaşdırılması sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verilib.

Keniya Respublikası Ali Məhkəməsinin sədri Marta Koome səmimi qəbula görə təşəkkürünü bildirərək, Azərbaycanın məhkəmə sistemində həyata keçirilən islahatları yüksək qiymətləndirib. Xüsusilə Azərbaycan məhkəmə sistemində həyata keçirilən islahatların, rəqəmsallaşma, “Elektron məhkəmə” informasiya sisteminin və məhkəmə idarəçiliyində tətbiq olunan müasir yanaşmaların öyrənilməsində maraqlı olduğunu qeyd edib.

Görüşün yekununda Azərbaycan Respublikası Ali Məhkəməsi ilə Keniya Respublikası Ali Məhkəməsi arasında Əməkdaşlıq haqqında Memorandum imzalanıb. Memorandum məhkəmə sahəsində qarşılıqlı təcrübə mübadiləsinin təşviqi, hakimlərin və məhkəmə əməkdaşlarının peşəkar bilik və bacarıqlarının artırılması, habelə məhkəmələr arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsi məqsədini daşıyır.

Görüşdə Azərbaycanın Keniya Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Sultan Hacıyev də iştirak edib.

# Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin Konfransı keçirilib



2026-cı il 22-23 iyun tarixlərində Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti Şimali Makedoniyanın paytaxtı Skopye şəhərində keçirilən Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin növbəti konfransında iştirak edib.

Konfransda məhkəmələrə ictimai etimadın artırılması, məhkəmə müstəqilliyinin təmin edilməsi, məhkəmə proseslərində və məhkəmə aparatının fəaliyyətində süni intellekt texnologiyalarının hazırkı və gələcək tətbiqi, habelə məhkəmələrin ictimaiyyəti narahat edən məsələlərə münasibəti ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

Gündəlikdə duran məsələlərlə bağlı çıxış edən Çingiz Əsgərov Azərbaycanda həyata keçirilən hüquqi islahatlar, Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının fəaliyyəti, eləcə də məhkəmə sisteminin müasirləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Konfrans çərçivəsində iştirakçılar müxtəlif ölkələrin məhkəmə sistemlərində həyata keçirilən islahatlar, rəqəmsallaşma prosesləri və ədalət mühakiməsinin səmərəliliyinin artırılması istiqamətində əldə olunan nəticələr barədə təcrübə mübadiləsi aparıblar. Müzakirələr zamanı müasir dövrdə məhkəmə hakimiyyətinin qarşısında duran çağırışlar, ictimai etimadın gücləndirilməsi və yeni texnologiyaların tətbiqi məsələlərinə xüsusi diqqət yetirilib.

Qeyd edək ki, Mərkəzi və Şərqi Avropa ölkələrinin Ali Məhkəmə sədrlərinin Konfransı 2011-ci ildən etibarən keçirilir və region ölkələrində aparılan məhkəmə islahatlarının müzakirəsi, habelə qabaqcıl təcrübələrin paylaşılması üçün mühüm beynəlxalq platforma rolunu oynayır.

# Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib



2026-cı il iyunun 30-da Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.

İclasda çıxış edən Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov məhkəmə sistemində aparılan islahatlar, ədalət mühakiməsinin müasir çağırışlara uyğun təkmilləşdirilməsi istiqamətində görülmüş işlər və qarşıda duran vəzifələr barədə məlumat verib.

İclasda Məhkəmə-Hüquq Şurasının Aparatı və işçi qrupları tərəfindən məhkəmə fəaliyyətinə dair hazırlanmış layihələr ətrafında müzakirələr aparılıb, "Azərbaycan Respublikası məhkəmələrinin ədalət mühakiməsinin həyata keçirilməsi fəaliyyəti nəticəsində yaranan sənədlərin saxlanma müddətləri göstərilməklə sahə Siyahısı və onun tətbiq olunmasına dair Təlimat" və dövrün tələblərinə uyğun olaraq yenidən işlənilmiş "Hakimlərin Etik Davranış Kodeksi" layihələri təsdiq olunub.

Sonra Cinayət mühakiməsi icraatı üzrə ədalət mühakiməsinin səmərəliyinin təhlilinə dair İşçi qrupunun təqdimatı dinlənilib.

Eyni zamanda intizam icraatı üzrə işlərə baxılaraq müvafiq qərarlar qəbul edilib.

# Hakimlər Türkiyədə təlim səfərində olublar



Məhkəmə-Hüquq Şurası və Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası tərəfindən hakimlərin biliklərinin artırılması, xarici ölkələrin məhkəmə təcrübələrinin öyrənilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 3 mart tarixli Sərəncamı ilə respublikanın müxtəlif birinci instansiya məhkəmələrinə ilk dəfə təyin edilmiş 34 hakim, Hakimlərin Seçki Komitəsinin üzvü, Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri Zahid Məmmədov, Məhkəmə-Hüquq Şurasının Aparatının və Ədliyyə Akademiyasının nümayəndələrinin iştirakı ilə cari ilin 7-12 iyun tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində təlim səfərində olublar.

Türkiyə Respublikasının Ədliyyə Akademiyasında keçirilən təlimlərdə türkiyəli hakimlər tərəfindən hakimlərə Türkiyənin hüquq sistemi, hakimlərin statusu, ixtisaslaşmış məhkəmələrin, habelə ədliyyə, prokurorluq orqanlarının fəaliyyəti barədə məlumat verilib. Həmçinin səfər çərçivəsində hakimlər və nümayəndə heyəti İstanbul Ədliyyə Sarayında fəaliyyət göstərən məhkəmələri ziyarət edib, yaradılan şəraitlə tanış olublar.

Eyni zamanda hakimlərin asudə vaxtlarının səmərəli təşkili və dünya görüşlərinin artırılması məqsədilə Türkiyənin turizim mərkəzlərinə və tarixi abidələrinə də ziyarəti təşkil edilib.

# Hakimlərin Seçki Komitəsinin məlumatı



Hakimliyə namizədlərin növbəti seçim prosesi ilə əlaqədar 300-dən çox hüquqşünas test imtahanında iştirak etmək üçün sənədlərini Hakimlərin Seçki Komitəsinə təqdim edib.

Komitə bildirir ki, həmin namizədlərlə test imtahanı cari ilin iyun ayının 28-də Dövlət İmtahan Mərkəzinin Bakı şəhəri, Binəqədi rayonu, Süleyman Sani Axundov küçəsi 50 ünvanında yerləşən Elektron imtahanlar korpusunda keçiriləcəkdir.

Namizədlər imtahana buraxılış vərəqəsini iyun ayının 18-dən etibarən dim.gov.az saytı vasitəsilə əldə edə bilərlər.

Buraxılış vərəqəsini əldə etmək üçün son müddət 27 iyun 2026-ci il saat 10:00 müəyyən edilmişdir.

Əlaqə telefonları: (012) 510-22-97; (077) 308-43-10

# Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının 46-cı plenar iclası keçirilib



2026-cı ilin 18-19 iyun tarixlərində Xorvatiya Respublikasının Şibenik şəhərində Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) 46-cı plenar iclası keçirilib.

Tədbirdə CEPEJ-in üzvü və milli koordinatoru qismində Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurası Aparatının nümayəndələri iştirak ediblər. İclas CEPEJ-ə üzv və müşahidəçi dövlətlərin nümayəndələrinin, hökumət rəsmilərinin və tanınmış ekspertlərin iştirakı ilə baş tutub. Tədbirin gündəliyinə uyğun olaraq, Aparatın nümayəndələri tərəfindən 2025-ci ilin dekabr ayından etibarən məhkəmə-hüquq sahəsində həyata keçirilən islahatlar, institusional fəaliyyət barədə məlumat verilib.

Əlavə olaraq, iclasda “Məhkəmə sistemlərinin qiymətləndirilməsi”, “Ədalət mühakiməsinin keyfiyyəti”, “Kibermәhkəmə və süni intellekt” işçi qrupları tərəfindən CEPEJ-in növbəti qiymətləndirmə hesabatının tərtib edilməsi istiqamətində əldə olunmuş irəliləyişlər, məhkəmə icraatında tərcümənin keyfiyyətinə dair hazırlanmış təlimatlar, ədalət mühakiməsi sahəsində süni intellektdən istifadəyə dair hesabat təqdim edilib. Həmçinin hakimlərin sürətlə rəqəmsallaşan mühitdə fəaliyyət göstərməsi və bu proseslərdə aparıcı rol oynaması üçün zəruri bilik və bacarıqlara yiyələnməsini nəzərdə tutan yeni texnologiyalar üzrə nümunəvi təlim proqramının layihəsi ətrafında müzakirələr aparılıb.

# Hakimliyə namizədlərlə test imtahanı keçirilib




Hakimlərin Seçki Komitəsi tərəfindən vakant hakim ştatlarının komplektləşdirilməsi məqsədilə hakimliyə namizədlərin seçim prosesi davam etdirilir.

2026-cı ilin 28 iyun tarixində 337 nəfər hakimliyə namizədlə Dövlət İmtahan Mərkəzinin Elektron İmtahanlar Korpusunda beynəlxalq və yerli müşahidəçilərin, o cümlədən vətəndaş cəmiyyəti nümayəndələrinin, televiziya və mətbuat təmsilçilərinin iştirakı ilə növbəti test imtahanı keçirilib.

Namizədlər üçün hər cür əlverişli şəraitin yaradıldığı imtahan zamanı onlar sualları müasir texnologiyaların tətbiqi ilə, fərdi qaydada, kompüter vasitəsilə cavablandırıblar. İmtahanın nəticələri hər bir namizədə sualları cavablandırdıqdan dərhal sonra namizədə elan olunub.

İmtahanda 60 və daha artıq bal toplayaraq uğur qazanmış 175 nəfər hakimliyə namizəd müsabiqənin növbəti - yazılı imtahan mərhələsinə buraxılıb. Proses müşahidəçilər tərəfindən şəffaf prosedur kimi yüksək dəyərləndirilib.

Qaydalara görə imtahanın nəticələri namizədlərin yalnız şəxsi eyniləşdirmə kodu göstərilməklə dərc edilir.

Eyni zamanda Hakimlərin Seçki Komitəsi bildirir ki, növbəti müsahibə üçün hakimliyə namizədlərin sənədlərinin qəbulu fasiləsiz olaraq davam edir.

Bununla əlaqədar hakim olmaq arzusunda olan hüquqşünaslar sənədlərini təqdim etməyə dəvət olunurlar.

Əlaqə telefonları: (012) 510-22-97; (012) 510-21-62

Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Ayna Sultanova küçəsi 9.

# Qanunvericiliyə edilmiş dəyişikliklər

Hüquqi
akta keçid

## 1.Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli Qanunu

2026-cı il 26 may 412-VIIQ nömrəli Qanunla "Maliyyə icarəsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanun 5 fəsil və 25 maddədən ibarətdir. Qanunda maliyyə icarəsi sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi, "lizinq" anlayışının "maliyyə icarəsi" termini ilə vahidləşdirilməsi, habelə maliyyə bazarı subyektləri arasında münasibətlərin müasir prinsiplər əsasında qurulması öz əksini tapmışdır.
Qanunun birinci fəslində maliyyə icarəsi fəaliyyətinin hüquqi əsasları, tətbiq dairəsi və əsas anlayışlar müəyyən edilir. İkinci fəsildə maliyyə icarəsi müqaviləsinin bağlanması, ödəniş mexanizmi, tərəflərin hüquq və vəzifələri, subicarə münasibətləri və müqaviləyə vaxtından əvvəl xitam verilməsi halları tənzimlənir. Üçüncü fəsildə maliyyə icarəsi subyektlərinin əmlak hüquqlarının müdafiəsi, risklərin bölüşdürülməsi və sığorta mexanizmləri əks olunub. Dördüncü fəsil maliyyə icarəsi fəaliyyətinin tənzimlənməsi və dövlət nəzarətinə həsr olunub. Beşinci fəsildə isə qanunvericiliyin pozulmasına görə məsuliyyət və keçid müddəaları müəyyən edilir.
Qanunun qəbul edilməsi ilə əlaqədar bir sıra qanunvericilik aktlarına da terminoloji vahidliyin təmin edilməsi məqsədilə dəyişikliklər edilmişdir.
Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsində maliyyə icarəsi münasibətlərinin xüsusi "Maliyyə icarəsi haqqında" Qanunla tənzimlənməsi təsbit edilmiş, "lizinq" münasibətlərini tənzimləyən 39-cu fəsil ləğv edilərək terminologiya yeni qanuna uyğunlaşdırılmışdır. Bununla yanaşı, borclu maliyyə icarəsi alanın və ya maliyyə icarəsi verənin öhdəlikləri üzrə tələblərin maliyyə icarəsi obyektinə yönəldilməsinin xüsusiyyətləri "Müflisləşmə və iflas haqqında" Qanuna ayrıca maddə kimi əlavə edilmişdir.
Qeyd olunmalıdır ki, "Maliyyə icarəsi haqqında" Qanun rəsmi dərc edildiyi gündən 6 ay sonra qüvvəyə minəcək. Keçid müddəalarına əsasən, hazırda maliyyə icarəsi fəaliyyəti ilə məşğul olan şəxslər müəyyən olunmuş müddətdə fəaliyyətlərini yeni qanunun tələblərinə uyğunlaşdırmalı və müvafiq reyestrə daxil edilmək üçün Azərbaycan Mərkəzi Bankına müraciət etməlidirlər.

Hüquqi
akta keçid

## 2. "Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli 415-VIIQD nömrəli Qanunu

"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikası Qanununa edilən dəyişikliklərin əsas məqsədi elektron hökumət mexanizmlərinin hüquqi əsaslarını daha da təkmilləşdirmək, dövlət idarəçiliyində operativliyi və səmərəliliyi artırmaqdır. Belə ki, sözügedən Qanuna edilmiş dəyişikliklər vətəndaş müraciətlərinin Elektron Hökumət İnformasiya Sistemi (EHİS) üzərindən daha çevik və şəffaf idarə olunmasını, xidmət keyfiyyətinin yüksəldilməsini və rəqəmsallaşma prosesinin gücləndirilməsini nəzərdə tutur. Dəyişikliklərə əsasən vətəndaşlar müraciətlərinə cavabın hansı üsulla təqdim

olunacağını əvvəlcədən seçə biləcəklər. Cavablar elektron formada, poçt vasitəsilə və ya EHİS üzərindən təqdim ediləcəkdir.
Bundan əlavə, elektron müraciətlər aidiyyəti qurumun rəsmi internet informasiya ehtiyatına daxil edilə, qurumun elektron ünvanına göndərilə və ya birbaşa EHİS vasitəsilə təqdim ediləcəkdir.

Hüquqi akta keçid

## 3. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 25 may tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 25 may tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin IV hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 32-ci maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 79-cu maddəsinin həmin Məcəllənin 41.2-ci maddəsi və Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 173-cü maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.

Hüquqi akta keçid

## 4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2026-cı il 16 iyun tarixli Qərarı

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumu 2026-cı il 16 iyun tarixdə Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin VI hissəsinə, "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikası Qanununun 27.2 və 33-cü maddələrinə və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Daxili Nizamnaməsinin 39-cu maddəsinə müvafiq olaraq, xüsusi konstitusiya icraatının yazılı prosedur qaydasında keçirilən məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin və 29-cu maddəsinin I və II hissələrinin tələbləri baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329.1, 337.1 və 739.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxaraq qərar qəbul etmişdir.